Minaxanım
Əsədlinin
Şəxsi Kolleksiyası

Y.M.Mahmudlu
N.İ.Məmmədova
İ.X.Zeynalov
M.Q.Abdullayev
K.H.Məmmədov
R.Ə.Ağayev

# TARİX



**QƏBUL İMTAHANLARINA HAZIRLAŞANLAR, YUXARI SİNİF ŞAGİRDLƏRİ VƏ MÜƏLLİMLƏR ÜÇÜN DƏRS VƏSAİTİ**

---

Azərbaycan Respublikası
Təhsil Nazirliyi və
Tələbə Qəbulu üzrə
Dövlət Komissiyası
tərəfindən təsdiq edilmişdir

**DİQQƏT!!!**
Yalnız üzərində
**mühafizə nişanı (hologram)**
olan kitab **ETİBARLIDIR!!!**

**BAKI - 2006**

63.3 (5 ük)

T 16

**ABİTURİYENT**
*jurnalının xüsusi buraxılışı*

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C Mərdanov

**REDAKSİYA HEYƏTİ**
A.H.Bağırov (baş redaktor), R.H.Novruzov (baş redaktor müavini), H.H.Kazımov (məsul katib), F.A.Atamov, T.A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nurlyev, Ç.İ.Rüstəmov.

**Elmi redaktor:**
Y.M.Mahmudlu — AMEA-nın Tarix İnstitutunun direktoru, t.e.d., professor

**Rəyçilər:**
Q.Ə.Əliyev — BDU-nun professoru, t.e.d.
İ.H Cəbrayılov — ARTPİ-nin aparıcı elmi işçisi, p.e.n.
T.R.Əliyev — AMEA-nın aparıcı elmi işçisi, t.e.n.
İ.Z.Əliyev — ADİU-nun dosenti, t.e.n.
C.M.Əliquliyeva — 145 saylı orta məktəbin müəllimi
F.E.Baxşəliyev — 160 saylı orta məktəbin müəllimi, dos.
H.Ə.Cabbarov — H Əliyev adına liseyin müəllimi

**Dil və üslub üzrə redaktor:** N.M.Musayev

**Kompüter və dizayn:** O.Y.Şelaginov, İ.İ.Cəfərov, M.Ə.Bədəlov, S.N.Hüseynov

## TARİX

**(qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün dərs vəsaiti)**

Vəsait ümumtəhsil məktəbləri üçün tarix fənni üzrə tədris proqramları və dərsliklər əsasında TQDK tərəfindən tərtib edilmiş qəbul proqramına uyğun yazılmışdır. Vəsaitdə qəbul proqramına daxil olan bütün mövzuların yığcam, lakonik, sadə və anlaşıqlı bir dildə izahı verilmişdir.

Vəsait TQDK-nın sədri, t.e.n. M.M.Abbaszadənin ümumi rəhbərliyi ilə hazırlanmışdır. Nəşrin metodiki və texniki cəhətdən hazırlanmasına Testlərin elmi tərtibi və statistik araşdırmalar şöbəsinin rəisi, t.e.n., dos. T.A.Bədəlov, "Abituriyent" jurnalının baş redaktoru, t.e.n. A.H.Bağırov, Test tərtibi metodikası sektorunun rəisi, p.e.n. R.H Hüseynov rəhbərlik etmişlər.

Dərs vəsaiti qəbul imtahanlarına hazırlaşanlar, orta məktəb şagirdləri və müəllimlər üçün nəzərdə tutulmuşdur.

© TQDK - «Abituriyent»
Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması QADAĞANDIR!

# Ön söz

Qəbul imtahanlarına hazırlaşan gənclərə elmi-metodiki kömək Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyətinin mühüm istiqamətlərindəndir. Təqdim olunan vəsait bu sahədə görülən işlərin davamıdır. Abituriyent və yuxarı sinif şagirdləri üçün nəzərdə tutulan bu vəsait qəbul proqramlarının məzmununa və tələblərinə uyğun olaraq hazırlanmışdır.

Vəsaitin zəruriliyi bir sıra amillərlə şərtlənir. Məlumdur ki, təlimin qarşısında duran ən mühüm vəzifələrdən biri şagirdləri özünütəhsilə - müstəqil təhsilə hazırlamaqdır. Çox təəssüflər olsun ki, bu cəhətdən hazırda təlim prosesində ciddi çatışmazlıqlar müşahidə olunur və repetitor xidmətindən geniş miqyasda istifadə olunmasının əsas səbəblərindən biri də məhz elə budur. Bunu nəzərə aldıqda öz üzərində müstəqil çalışmaq istəyənlər üçün müvafiq vəsaitlərin nə dərəcədə gərəkli olduğu aydınlaşır. Elə vəsaitlər ki müvafiq fənn üzrə bütöv kursun məzmununu yığcam, lakonik, sadə və anlaşıqlı bir dildə izah edə bilsin. Belə vəsaitlərin hazırlanıb nəşr olunması bir də ona görə vacibdir ki, qəbula hazırlaşanların heç də hamısı hazırda buraxılış siniflərində oxuyan şagirdlər deyil, onlardan bir çoxu əvvəlki illərin məzunlarıdır. Odur ki hər bir abituriyentin öz üzərində müstəqil çalışmasına səmərəli imkan yaradan metodiki cəhətdən səviyyəli vəsaitlərin hazırlanmasına bu gün böyük tələbat vardır.

Vəsaitdə materialların seçimi və şərhi zamanı üç mühüm elementin - müvafiq elmin əsasları, təhsilin məqsədləri və abituriyentlərin ümumi bilik və yaş səviyyəsinin bir-biri ilə ən optimal nisbətdə əlaqələndirilməsinə xüsusi diqqət yetirilib. Adətən, ümumtəhsil məktəblərinin aşağı və orta siniflərində dərs proqramları və vəsaitləri pillələlik prinsipi üzrə - aşağı siniflərdə ötəri, bəsit şəkildə öyrədilənlərin yuxarı siniflərdə nisbətən dərindən mənimsədilməsi prinsipi əsasında tərtib olunur. Bu vəsait isə abituriyentlər və yuxarı sinif şagirdləri üçün nəzərdə tutulduğundan müəlliflər onu hazırlayarkən qəbul proqramının məzmun və tələblərinə uyğun olaraq xətti prinsipi, yəni eyni bir mövzu və məsələnin bir dəfə müfəssəl şərhi prinsipini əsas götürüblər. Ona görə də mövcud fənnin bütün bölmələrinin bir kitabda verilməsi normal qəbul edilməlidir. Əlbəttə, belə bir fikir yaranma-

malıdır ki, qəbula hazırlaşmaq üçün yalnız mövcud vəsaitdən istifadə etmək kifayətdir. Vəsait dərslikləri əvəz etmir. Proqram materiallarının mənimsənilməsində bunların hərəsinin öz yeri vardır. Vəsait hər bir şagirdin, abituriyentin dərsliklərdən öyrəndiyi bilikləri tamamlayır, zənginləşdirir və sistemləşdirir. O, biliklərin möhkəmləndirilməsi məqsədilə yerinə yetirilən təkrarlama mərhələsində xüsusilə əhəmiyyətli rol oynayır. Vəsaitə xas olan lakoniklik, şərh və izahlardakı yığcamlıq, məzmunu qısa, lakin dolğun ifadə etmək keyfiyyəti ondan istifadə edənlərə az bir vaxtda səmərəli nəticələr əldə etməyə imkan verir. İnanırıq ki, bu üstünlüklərinə görə vəsait abituriyentlər üçün gərəkli bir məlumat mənbəyi olacaqdır.

Vəsaiti hazırlayarkən müəlliflər təlim sahəsində ölkəmizdə və beynəlxalq təcrübədə tətbiq olunan müasir metodika və texnologiyalardan, mütərəqqi üsul və vasitələrdən, o cümlədən testləşdirmə üsulları və yoxlamalarından geniş istifadə etmişlər.

Vəsaitin hazırlanmasına müvafiq sahənin nüfuzlu alimləri, tanınmış metodistləri, təcrübəli müəllimləri cəlb edilmiş, materiallar TQDK nəzdində elmi-metodiki seminarlarda geniş müzakirədən keçirilmiş, mütəxəssislərin rəyləri öyrənilmişdir. Bununla belə, təqdim olunan vəsait ideal sayıla bilməz, onda müəyyən qüsurlar da ola bilər. Bunlar növbəti nəşrlərdə aradan qaldırılmalı və vəsait daha da təkmilləşdirilməlidir. Odur ki ümumi işimizin xeyrinə materialla bağlı mülahizə, rəy və təkliflərinizi bildirməyi Sizdən xahiş edir və əvvəlcədən təşəkkürümüzü bildiririk.

**Məleykə Abbaszadə,**
Tələbə Qəbulu üzrə
Dövlət Komissiyasının sədri



# Giriş

Abituriyentlər üçün nəzərdə tutulmuş bu kitablar yazılarkən TDQK-nın qəbul proqramı əsas götürülmüşdür.

Vəsait hazırlanarkən əsasən orta ümumtəhsil məktəbləri üçün nəzərdə tutulmuş tarix dərsliklərindən istifadə olunmuş, onlarda şərh edilən hadisələr yığcamlaşdırılmışdır.

Vəsaitin üstün cəhətlərindən biri də həm Azərbaycan tarixi, həm də ümumdünya tarixi ilə bağlı hadisələrin sinxron şəkildə şərh edilməsidir. Eyni zamanda vəsaitdə hadisələrin daha düzgün və dolğun anlaşılması üçün xəritələr və tarixi şəxsiyyətlərin rəsmləri verilmişdir. Bu isə onları daha oxunaqlı və məzmunlu edir, faktlara və hadisələrə marağı artırır, yadda qalmalarını asanlaşdırır. Abituriyentlərin hadisələrin axarını daha ardıcıl izləmələri məqsədilə iki dərslikdə yer almış Yeni tarix hadisələri ölkələr üzrə bir paraqrafda cəmləşdirilmişdir.

Vəsaitin sonunda verilmiş xronologiya abituriyentlərə tarixdə baş verən hadisələrin axarını ardıcıllıqla izləməyə imkan verəcəkdir. Terminlər hissəsində isə abituriyentlərin onları daha yaxşı yadda saxlamaları məqsədilə ayrı–ayrı tarix dərsliklərində verilən terminlər bir yerə toplanılmışdır.

Ümumi məlumat:

İnsanların necə yaşadıqlarını, onların həyatlarında hansı hadisələrin baş verdiyini, onların həyatının necə və nə üçün dəyişib indiki şəklə düşdüyünü öyrənən elm tarix adlanır.

Tarix özü aşağıdakı dövrlərə bölünür:

1. Qədim dünya tarixi ən qədim insanın yaranmasından quldarlıq quruluşunun tənəzzülü və Qərbi Roma imperiyasının süqutuna qədərki dövrü əhatə edir.
2. Orta əsrlər tarixi feodal münasibətlərinin yaranmasından kapitalizmin yaranmasına qədərki dövrü əhatə edir.
3. Yeni tarix 1640-cı ildən 1918-ci llədək olan mərhələni əhatə edir.
4. Ən yeni tarix Birinci dünya müharibəsinin başa çatdığı 1918-ci ildən indiki dövrə qədər olan mərhələni əhatə edir.

Ən qədim dövrlərdən başlayaraq insanların həyatını öyrənməyə imkan verən tarixi mənbələr iki əsas qrupa ayrılır:

1. Maddi mənbələr. Maddi mənbələrə qədim yaşayış məskənləri, qəbir abidələri və arxeoloji qazıntılar nəticəsində əldə edilmiş əmək alətləri, məişət əşyaları, silahlar, bəzək əşyaları və s. aiddir.

2. Yazılı mənbələr. Buraya müxtəlif dövrlərə aid heroqlif, mıxı kitabələr və s. yazılı abidələr aiddir. Ən qədim yazılar b.e.ə. IV minilliyin ikinci yarısına aiddir.

Qədim dövrün öyrənilməsində mühüm rol oynayan elmlər aşağıdakılardır:

1.Arxeologiya (yunanca "arxayos" – qədim, "loqos" – elm, yəni "qədim dövr haqqında elm") – insanların həyatını arxeoloji qazıntılar zamanı tapılmış maddi mənbələr əsasında öyrənən elmdir.

2. Antropologiya (yunanca "antropos" – insan, "loqos" – elm, yəni "insan haqqında elm") – ən qədim insan skeletinin qalıqlarına əsasən onların xarici görkəminin necə olduğunu müəyyən etməklə məşğul olan elmdir.

3. Etnoqrafiya (yunanca "etnos" – xalq, "qrafo" – yazmaq) müxtəlif xalqların həyatını və məişətini öyrənən elmdir.

4. Xronologiya (yunanca "xronos" – zaman, "loqos" – elm, yəni "zaman haqqında elm") – tarixdə baş vermiş hadisələri zaman ardıcıllığı ilə öyrənən elmdir.

5. Paleoqrafiya – qədim yazıları öyrənən elmdir.

Tarixdə il hesabı:

Qədim insanların həyatında bir sıra hadisələr daha dərindən iz buraxmış, onların yaddaşında daha çox qalmışdır. İnsanlar həmin əlamətdar hadisələrin baş verdiyi ili, adətən, birinci il adlandırırdılar. Məsələn, qədim yunanlar öz tarixlərini ilk Olimpiya oyunlarının başlanmasından (b.e.ə. 776-cı il), qədim romalılar isə Roma şəhərinin salınmasından (b.e.ə. 753-cü il) hesablayırdılar.

Təxminən iki min il bundan əvvəl, yəni Roma şəhərinin salınmasından 753 il sonra Qədim Roma imperiyasının ərazisində – Fələstində İsa peyğəmbərin dünyaya gəlməsi (ərəb dilində "milad") haqqında rəvayət yayıldı. İsanın dünyaya gəldiyi həmin birinci ildən bu günə qədər olan dövrə bizim era deyilir. Birinci ildən əvvəl olan dövr isə bizim eradan əvvəl (b.e.ə.) adlanır.



Hal-hazırda dünya xalqlarının əksəriyyəti məhz İsa peyğəmbərin doğulduğu ili başlanğıc götürən, Günəş ili hesabına əsaslanan təqvimdən (miladi təqvimdən) istifadə edirlər. Bu təqvimdə bir il 365 gün 6 saatdır. Yerin Günəş ətrafında tam dövr etməsinə əsaslanan Günəş ili təqvimini ilk dəfə Qədim Misir kahinləri tərtib etmiş, b.e.ə. 46-cı ildə Roma imperatoru Sezar isə onu təkmilləşdirmişdir.

İslam aləmində Hicri təqvimindən istifadə olunur. Bu təqvimin başlanğıcı miladi təqviminin 622-ci ilində Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə "hicrət etməsindən" (köçməsindən) hesablanır. Hicri təqvimində Ay ili əsas götürülür. Ay ili 354 gündən ibarətdir.

Miladi təqvimdən Hicri təqvimə keçmək üzün aşağıdakı düsturdan istifadə olunur:

Hicri = Miladı – 622 + (Miladi – 622) : 33

Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə yaranmışdır. Hicri tarixlə bu neçənci ildə baş vermişdir?

1918 – 622 + (1918 – 622) : 33 = 1296 + 39 = 1335. Deməli, Azərbaycan Cümhuriyyəti Hicri təqvimlə 1335-ci ildə qurulmuşdur.

Tarixi hadisələrin xronoloji baxımdan ardıcıl düzülüşü zaman oxu və ya tarixi lent adlanır. Burada hər 100 il bir əsr, hər on əsr bir minillikdir.

Bizim eraya aid olan tarixi hadisələri əks etdirən rəqəmlər böyüdükcə tarixi hadisə bizə yaxınlaşır. Əksinə, bizim eradan əvvələ aid tarixi hadisələri əks etdirən rəqəmlər böyüdükcə tarixi hadisələr bizdən uzaqlaşır.

Zaman oxu ilə bağlı aşağıdakıları bilmək lazımdır:

1. Verilən hadisələrin hər ikisi eyni eraya aid olduqda bu hadisələri əks etdirən böyük rəqəmdən kiçik rəqəmi çıxmaq lazımdır. Məsələn, Spartak üsyanının başlanmasından (b.e.ə. 74) Yuli Sezarın öldürülməsinədək (b.e.ə. 44) olan vaxtı hesablamaq üçün 74–dən 44 çıxmaq lazımdır:

74 – 44 = 30

2. Verilən hadisələrdən biri bizim eraya, digəri isə bizim eradan əvvələ aid olduqda isə həmin hadisələri əks etdirən rəqəmləri toplamaq lazımdır. Məsələn, Atropatenanın müstəqil dövlətə çevrilməsindən (b.e.ə. 321) Azərbaycan Səfəvi dövlətinin yaranmasınadək (1501) neçə il keçmişdir:

321 + 1501 = 1822

rast gəlinir. Azərbaycanda 700 min il bundan əvvələ aid edilən ocaq izləri tapılmış Azıx mağarasında yaşamış ən qədim insan:

– dünyada ən qədim insan qalıqlarından dördüncüsüdür;

– 350–400 min il bundan əvvəl yaşamışdır;

– tədricən tikinti vərdişlərinə yiyələnmişdir;

– sadə incəsənətlə məşğul olurdu;

– ibtidai dini təsəvvürə malik idi.

2. Orta Paleolit 100 min il bundan əvvəl başlayıb 40 min il bundan əvvələ qədər davam etmişdir. Orta Paleolitə aid alətlər ilk dəfə Fransada Müstye adlı yerdən tapıldığından bu dövr "Müstye mədəniyyəti" də adlanır. Azərbaycanda Orta Paleolit dövrünə aid məskənlər aşağıdakılardır: Tağlar, Qazma, Damcılı. Bu dövrdə:

– yeni insan tipi – neandertal (Almaniyada yer adıdır) yarandı;

– əhali Cənubi Qafqazın cənub-şərq yamacına, Naxçıvan, Qarabağ, Qazax bölgələrinə yayıldı;

– axirət dünyasına, totemlərə (heyvanlara) inam, ovsun meydana gəldi;

3. Üst Paleolit 40 min il bundan əvvəl başlayıb, b.e.ə. 12-ci minilliyə qədər davam etmişdir. Azərbaycanda Üst Paleolit dövrü düşərgələrinə daha çox Qarabağ və Qazax bölgələrində rast gəlinir. Bu dövrdə:

– nəhəng maral və mağara ayılarının nəsli kəsildi, müxtəlif növlü qaşovlar geniş yayıldı;

– «Ağıllı insan»ın (Homo sapiyens) yaranması başa çatdı.

«Ağıllı insan»ın:

– beyni «bacarıqlı insan»ın beynindən iki dəfə böyük idi;

– o, boyca hündür, düz qamətli idi;

– şüura, rabitəli nitqə malik idi;

– ağacların iri gövdələrini kəsir, bir-birinə bağlayır, sal düzəldirdi;

– daha qalın gövdələrin içini ovur, qayıq hazırlayırdı.

Ulu icmanı qan qohumluğu olan, birlikdə yaşayan, işləyən, əmlakı ümumi olan insanların birliyi – qəbilə icması əvəz etdi. Bu kollektivdə qadın əsas rol oynadığına görə qəbilə icmasının bu mərhələsi anaxaqanlığı (matriarxat) adlanır. Qəbilə icmasında qadın uşaqların qayğısına qalır, giləmeyvə və yabani bitkilər toplayırdı. O, həm də odun keşikçisi idi. Yırtıcı heyvanlardan qorunmaq, qida əldə etmək, ümumi ocaq (tonqal), birgə əmək, rabitəli nitq "ağıllı adamları" bir-birinə bağlayan əsas amillər idi. Onların yaşadıqları kollektivin tərkibi daimi olurdu və



dağılmırdı. Qəbilə ulu icmaya nisbətən daha mütəşəkkil idi. Qəbilənin ən hörmətli üzvləri ağsaqqallar idilər. Ağsaqqallar əmək alətlərinin hazırlanmasına, qidanın əldə edilməsi və bölüşdürülməsinə, gənclərə ovçuluğun öyrədilməsi işinə başçılıq edirdilər.

Paleolit dövründə ibtidai incəsənət yarandı. Bunu buynuzdan yonulmuş heykəllər, sümük üzərindəki təsvirlər və mağara rəsmləri sübut edir.

Hələ 100 min il bundan əvvəl başlayan soyuqlaşmanı 13 min il bundan əvvəl istiləşmə əvəz etdi.

Azərbaycanda b.e.ə. XII minillikdən b.e.ə. VIII minilliyə qədər davam etmiş Mezolit (Orta Daş) dövründə:

– ox və kaman ixtira edildi. Ovçuluq ön plana keçdi. Heyvanların daha uzaq məsafədən ovlanmasına imkan yarandı.

– mənimsəmə təsərrüfatından (yığıcılıq, ovçuluq) istehsal təsərrüfatına (əkinçilik və maldarlıq) keçid başlandı. Əsas əmək aləti toxa olduğu üçün ilk əkinçilik toxa əkinçiliyi adlanır. Ən qədim əkinçilik məskəni 10 min il bundan əvvəl Ön Asiyada meydana gəlib. Heyvanların əhliləşdirilməsinə başlanmasıyla ibtidai heyvandarlığın əsası qoyuldu. Yığıcılıqdan əkinçilik, ovçuluqdan isə maldarlıq yarandı.

Azərbaycanda Mezolit dövrü Qobustan və Damcılı düşərgələri əsasında öyrənilmişdir. Qobustanda:

– qaya rəsmlərində qədim insanların ovsun–totem inamları, dini ayinləri, ov səhnələri təsvir olunurdu;



İbtidai insanların dəfn mərasimi

– axirət dünyasına inamla bağlı olaraq dəfn zamanı ölülərin yanına məişət əşyaları qoyulurdu;

– çaxmaqdaşı və sümükdən düzəldilmiş əmək alətlərindən istifadə olunurdu.

B.e.ə. VII minillikdə başlayan Neolitdə (Yeni Daş dövrü):

– «Neolit inqilabı» baş verdi, yeni istehsal təsərrüfatı (əkinçilik və maldarlıq) meydana gəldi;

– daşların deşilməsi və cilalanması üsulları mənimsənildi;

– toxuculuq yarandı və saxsı



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.